**UOT 327**

# MÜHARİBƏ VƏ SÜLH MƏSƏLƏLƏRİ: YENİ REALLIQLAR

**Qoşqar BAĞIROV***

***Açar sözlər:*** *müharibə və sülh, işğal, təhlükəsizlik, Vətən müharibəsi, revanşist meyillər*

***XÜLASƏ***

Tarixin ayrı-ayrı dövrlərində baş vermiş münaqişə və müharibələrdən söz açılmış, onların səbəb və nəticələri təhlil olunmuşdur. Hegemon dövlətlərin iqtisadi maraqları, təkəbbürlü siyasətçilərin iddiaları və millətçi ünsürlərin düşmənçilik meyillərindən qaynaqlanan müharibələrin gətirdiyi bəlalar,insanlıq dramı xatırlanmış, tarixin acı nəticələrindən ibrət götürmək zərurəti vurğulanmışdır. Sülh şəraitində yaşamaq üçün ədalətli mövqe nümayiş etdirmək, haqq və hüquqa əsaslanıb fəaliyyət göstərməyin alternativi olmadığı qənaətinə gəlinmişdir. Məqalədə Qarabağ münaqişəsinə də münasibət bildirilmiş, Vətən müharibəsində qazanılmış qələbənin əhəmiyyətinə toxunulmuşdur. Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasından sonra sülh danışıqları üçün yaranmış şəraitdən bəhs edilmişdir.

## Giriş

Məqalədə bəşəriyyət üçün hər zaman aktual olan hərb və sülh məsələsi araşdırılıb, təhlükəsizliklə bağlı problemlər diqqət mərkəzində saxlanılıb. Araşdırmada müharibələrin səbəb və nəticəsi, xarakteri, onların cəmiyyətə vurduğu ziyan, işğal və ona qarşı mübarizə zərurəti yönündə atılan addımlar, sülhün əldə olunması ilə əlaqədar tədbirlərin əhəmiyyəti qeyd olunur. Bu kontekstdə Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsinin həlli ilə bağlı görülmüş işlər və perspektivdə duran məsələlər də təhlil edilir.

## Əsas hissə

Bəşəriyyət yarandığı vaxtdan insanlar və toplumlar arasında öz maraqlarının həyata keçirilməsi, ərazilərə nəzarət, bəzən də qisasçılıq zəminində qarşıdurmalar baş vermiş, qan tökülmüşdür. İbtidai icma quruluşunda belə münaqişələr tayfa və qəbilələr arasında yaranırdısa, sonradan siniflərin meydana gəlməsi, dövlətlərin yaranması ilə bu cür hallar daha geniş miqyas almışdır. Barıtın kəşfi müharibə riskini daha da artırmış, odlu silahlardan istifadə halları daha çox insan itkisinə səbəb olmuşdur. Silah istehsalının genişlənməsi müharibəyə meyilliliyi də artırmış, siyasi və iqtisadi maraqların təmin olunmasına rəvac vermişdir. Sivilizasiyanın yaranmasından indiyədək dünyada 15 minə yaxın irili-xırdalı müharibə baş vermişdir. Bəs müharibə ümumilikdə nədir və o, əsasən hansı səbəblərdən yaranır? Müharibəyə konkret tərif vermək mümkün olmasa da əvvəldə qeyd etdiyimiz kimi, o, iqtisadi, siyasi, milli maraqlar zəminində baş verir, bəzən ədalətli, bəzən də ədalətsiz olur. Məşhur alman-prus hərb nəzəriyyəçisi, general Karl fon Klauzevits ”Müharibə haqqında” əsərində belə hesab edir ki, “müharibə siyasətin qanla davamıdır” [7].

Tarix boyu əsasən güclü dövlətlər öz maraqlarının həyata keçməsi üçün cəhdlər edib, ərazi iddiaları ilə çıxış edib, təbii sərvətlər uğrunda mübarizə aparmışlar. Planetimiz iki ən böyük hərbi qarşıdurmanın şahidi olmuşdur. Məlum olduğu kimi, bunlar Birinci və İkinci Dünya müharibələridir. Bu iki müharibə 130 milyondan çox insanın həyatına son qoymuşdur. İmperialist dövlətlərin planları üzrə törədilmiş müharibələr həm də iqtisadi itkilərə gətirib çıxarmışdır. Çünki hər bir döv-

* *AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*
*E-mail: qoshqar.bagirov1977@gmail.com*

lətin silahlı qüvvələri büdcədən asılıdır və ordunun saxlanılması, onun silah-sursat, texnika, geyim və ərzaq təminatı ümumi büdcəyə əsaslanır. Hər bir müharibənin sonu isə adətən sülh ilə nəticələnir. Sülhə nail olmaq üçün bəzən illlər lazım gəlsə də bu, məqbul variant hesab olunur. Çünki silahlı qarşıdurmanın davam etməsi yeni itkilər və məhrumiyyətlər deməkdir. Dünya müharibələrində, eləcə də son 30 ilə yaxın müddət ərzində müharibə şəraitində yaşamış Azərbayacan onun nə olduğunu real həyatda görüb, yaşayıb və hiss edib. Övladları 1-ci və 2-ci dünya müharibələrinin məşəqqətlərini yaşamış ölkəmiz vaxtilə Rusiya imperiyası tərkibində, sonra isə sovetlər ittifaqı zamanı 100 minlərlə insanı qurban verdi. Təkcə 1941-1945-ci il müharibəsində 600 mindən çox soydaşımız səfərbərliyə alındı, qanlı döyüşlərdə iştirak etdilər və onların yarıya qədəri həlak oldular. Yaxın tariximizə nəzər salanda Sovet İttifaqı hərbçilərinin Əfqanıstana yeridilməsi faktı da göz önünə gəlir. İmperialist maraqların ön planda olduğu müharibədə isə ədalətdən söhbət gedə bilməz. ABŞ və SSRİ-nin, indiki zamanda isə Rusiyanın maraqlarının toqquşduğu Yaxın Şərq hələ də sabitlikdən uzaqdır. İraq, Suriya, Liviya, Livanın neft ehtiyatlarının nəzarətdə saxlanılması, ondan faydalanmaq uğrunda mübarizə hələ də davam edir. Demokratik dəyərlərdən çox danışan güclü dövlətlər bu amildən də öz maraqları üçün istifadə edirlər. Onların siyasi və iqtisadi maraqları digər dövlətlərin eyni istəkləri ilə toqquşanda demokratiya arxa plana keçir və güc müstəvisində demokratiya "ixrac" edən ölkələr söz, fikir azadlığı, plüralizm kimi dəyərləri kənara qoyaraq şantaj və hədə-qorxu üsuluna keçirlər.

Siyasi və hərbi qütbləşmə yolunu tutan aparıcı dövlətlər –ABŞ və Rusiya bu gün qarşıdurma mövqeyindədirlər. ABŞ-ın da daxil olduğu NATO alyansı Rusiyaya əks mövqedədir. Bu siyasət Rusiyanın təsir dairəsini azaltmaq və onu mümkün qədər oyundan çıxarmaqdır. Belə ki, Rusiya və ABŞ-ın həm Şərqdə, həm də Avropada, həm Cənubi Qafqazda maraqları var.Bu baxımdan hər iki böyük dövlətin bu regionlarla bağlı antoqonist mövqeləri özünü göstərir. Belə ki, Rusiya uzun illər təsir dairəsində saxladığı həmin regionları əldən vermək istəmir. ABŞ isə adı çəkilən coğrafi mövqelərin bəzilərində təsir imkanlarına malikdir, lakin Cənubi Qafqaz müasir dövrdə onun üçün prioritet məsələdir. Bu, enerji təhlükəsizliyinin qorunması baxımından Qərb üçün zəruri amildir. ABŞ administrasiyası 2008-ci ildə Rusiya-Gürcüstan müharibəsində edə bilmədiyini bu gün Ukraynada həyata keçirmək istəyir. Ağ Ev Rusiya-Gürcüstan müharibəsində - ədalətsiz müharibədə rəsmi Tbilisiyə kömək edə bilmədi və nəticədə Gürcüstan ərazilərinin bir hissəsi işğal altına salındı, Moskva separatçıların Gürcüstan ərazilərində möhkəmlənməsinə kömək etdi. Bizim üçün daha ağrılı olan Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsinə gəldikdə isə bu məsələdə beynəlxalq birlik 28 il ərzində ədalətli mövqe nümayiş etdirmədi, BMT təcavüzkar Ermənistana qarşı əməli addımlar atmadı, ona qarşı sanksiyalar tətbiq etmədi. Cəzasızlıq fürsətindən istifadə edən rəsmi İrəvanda arxayınlıq yarandı və Ermənistan daha çox ərazi zəbt etmək fikrinə düşdü. Cəzasızlıq mühiti dünyanın ayrı-ayrı ölkələri üçün də presedentə səbəb oldu və belə bir fikir yarandı ki, haqsızlığa qarşı heç də ciddi tədbir görülmür və kim nə istəyirsə onu edə bilər. Bu presedent dünyanın ayrı-ayrı yerlərində yeni münaqişə ocaqlarının yaranmasına səbəb oldu, separatçılıq meyilləri gücləndi.

Ermənistan -Azərbaycan, Qarabağ münaqişəsinin həlli üçün yaradılmış ATƏT-in Minsk qrupunun fəaliyyətinə ümid bağlayan ölkəmizin bu gözləntisi də fayda vermədi. 28 ildən çox müddət ərzində münaqişə tərəfləri arasında danışıqlar aparan Rusiya, ABŞ və Fransa vasitəçiləri heç bir müsbət nəticə əldə etmədilər və belə görünür ki, onlar da ermənipərəst mövqe nümayiş etdirdilər, fikir formalaşdırdılar ki, münaqişənin hərbi yolla həlli mümkün deyil. Sülh danışıqları ilə əlaqədar səyləri və ümidləri boşa çıxan Azərbaycan belə qənaətə gəldi ki, Qarabağ münaqişəsini özü həll etməli olacaq. İqtisadiyyatını gücləndirən, ordu quruculuğuna xüsusi diqqət yetirən Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev həm də diplomatik səylərini gücləndirdi, regionda marağı olan ölkələrin neytrallıq mövqeyində dayanmasına zəmin hazırladı." Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm. Azərbaycan xalqı mənə inanır. Mən də bu inama arxalanaraq bütün lazımi tədbirləri görürəm, ölkəmizi inamla idarə edirəm, bütün sahələrdə, o cümlədən hərbi quruculuq sahəsində" [1].

Birinci Qarabağ müharibəsində öz havadarlarının hərbi dəstəyilə torpaqlarımızın 20 faizini işğal edən, yeni müharibə və yeni torpaqlar iddiasına düşən Ermənistana ikinci şans verilmədi. Bu illər ərzində dəfələrlə yeni təxribatlara əl atan Ermənistan 2016-cı il arel ayının əvvəllərində də genişmiqyaslı hücuma keçməyə cəhd etdi, lakin ordumuzun uğurlu əməliyyatları ilə düşmən geri oturduldu, Lələtəpə yüksəkliyi və ətraf ərazilərin bir hissəsi işğaldan azad olundu. 2020-ci il sentyabrın 27-də ermənilərin növbəti hücum cəhdi Vətən müharibəsinin başlanmasına səbəb oldu. Azərbaycan haqq savaşına başladı və müharibə 44 gün davam etdi. Bu, ölkəmizin apardığı ədalətli müharibə idi. Müqəddəs kitabımız “Qurani-Kərim”də buyrulur ki,”Sizinlə vuruşanlarla siz də Allah yolunda vuruşun, lakin həddən kənara çıxmayın” [5]. Bəli, haqq, ədalət yolu elə Allahın qoyduğu, buyurduğu yoldur. Bu, həqiqətin, ədalətin, təriqətin və mərifətin təntənəsidir. Azərbaycan ordusu hərb meydanında müharibə qaydalarına uyğun hərəkət etdi, ermənilərdən fərqli olaraq dinc insanları atəşə tutmadı, yaşayış məntəqələrini bombalamadı, gecə yatmış mülki insanları qadağan olunmuş raketlərlə vurmadı, beynəlxalq konvensiyaların tələblərinə uyğun hərəkət etdi. Ordumuz düşmən tərəfin yaralıları və hərbi əsirlərinə də humanist yanaşdı. Erməni hərbçiləri isə bizim sanitar xidmət maşınlarımızı belə atəşə tutdu, qeyri-humanist rəftar göstərdi. Ərazilərimiz düşməndən təmizlənərkən əsgərlərimiz daha bir erməni vəhşiliyinin şahidi oldular, fərarilik etməmələri üçün erməni döyüşçülərin zəncirlənməsi faktlarına rast gəlindi.

Mütəşəkkil idarəçiliyə, peşəkar qabiliyyətə, yüksək döyüş ruhuna və iradəyə malik olan Azərbaycan ordusu 44 günlük müharibə gedişində torpaqlarımızı düşməndən azad etdi, şəhidlərimizin qisasını aldı, milli qürurumuzu özümüzə qaytardı. Xalq-Prezident-Ordu birliyi sayəsində həm ermənilərə, həm də dünya ictimaiyyətinə sübut olundu ki, Qarabağ Azərbaycandır. Ölkə başçısı İlham Əliyev hər dəfə Qarabağ mövzusunda danışarkən bəyan edirdi ki, əgər işğal olunmuş ərazilərimiz sülh yolu ilə qaytarılmasa biz bu məsələni hərbi yolla həll etmək məcburiyyətində qalacağıq. Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının 7-ci qurultayında söylədiyi nitqində də bildirmişdi:”Mən son 17 il ərzində münaqişə ilə bağlı bütün çıxışlarımda deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu işğalla barışmayacaq. Heç vaxt Azərbaycan imkan verməyəcək ki, tarixi, əzəli torpaqlarında ikinci erməni dövləti yaradılsın. Heç vaxt bizi tam qane etməyən razılaşma ilə barışmayacağıq. Və müharibədən əvvəl müxtəlif çıxışlarımda, müsahibələrimdə deyirdim ki, bizə hansısa yarımçıq sülh müqaviləsi lazım deyil. Biz ərazi bütövlüyümüzü tam bərpa etməliyik”[3].

Xalqımızın iradəsi, ordumuzun gücü, dövlətimizin başçısının qətiyyəti sayəsində Azərbaycanın ərazi bütövlüyü təmin olundu, lakin hələ də həll edilməmiş bəzi məsələlər var. Ermənistanla sülh müqaviləsi imzalanmayıb və bu ölkədə revanşist qüvvələr baş qaldırmaq istəyir, bir sıra məsələlərin həllinə maneə yaradırlar. Azərbaycan Prezidenti İ. Əliyev, Ermənistanın Baş naziri N. Paşinyan və Rusiya prezidenti V. Putinin imzaladıqları bəyanatların, eləcə də Azərbaycan Prezidenti İ. Əliyev, Ermənistanın Baş naziri N. Paşinyan və Avropa İttifaqı Şurasının Prezidenti Ş. Mişelin münaqişənin həlli ilə bağlı razılaşdırılmış sənədlərin tələbləri hələ də yerinə yetirilməyib. Qarabağda erməni silahlı qruplarının ləğvi də gündəlikdə olan məsələrdən biridir.Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiya və demarkasiyası, nəqliyyat kommunikasiyalarının açılması üzrə Azərbaycan, Ermənistan və Rusiya baş nazirləri müavinlərinin rəhbərliyi ilə müvafiq komissiyalar yaradılıb və bu yöndə müəyyən işlər gedir. Zəngəzur dəhlizi ilə bağlı məsələlər də prioritetlər sırasındadır. Regional kommunikasiyanın açılması ilə bağlı 3+3 formatı-Azərbaycan-Ermənistan-Rusiya-Türkiyə-İran və Gürcüstanın əməkdaşlığı iqtisadi baxımdan çox faydalı olsa da, bu ölkələrin bəziləri arsında fikir ayrılığının olması layihənin reallaşmasını ləngidir. Ermənistan müxalifətinin və bəzi dairələrin dəhlizin açılmasına narazılıq etməsi, Rusiya-Gürcüstan münasibətlərinin yaxşı olmaması da məsələnin həllini uzadır. Amma nəzərə almaq lazımdır ki, iqtisadi mənfəəti siyasi qısqanclığa qurban vermək indiki dövr üçün məqbul deyil. Dünyanın üzləşdiyi koronavirus pandemiyası, iqlim dəyişikliyi və Rusiya – Ukrayna müharibəsi fonunda iqtisadi geriləmə, ərzaq böhranı ölkələrin iqtisadiyyatına öz mənfi təsirini göstərir. Belə bir şəraitdə Ermənistanın timsalında cılız hisslərə qapılmaq və qeyri-real tələblər irəli sürmək ən çox bu ölkənin özünə ziyan vura bilər. Bu gün erməni millətçiliyi o dərəcəyə gəlib çatıb ki, onların bir qismi fərqinə belə varmadan inad

göstərir, fayda və ziyanın nədən ibarət olduğunu başa düşmək istəmir. Müəyyən daxili və xarici qüvvələrin təsiri altında olan bu kəsim görünür ki, müharibənin ağrı-acısını öz üzərində, ailəsində bir o qədər də hiss etməyib. ”Kənardan baxana döyüş asan görünər” deyimini bu yerdə yada salmaq yerinə düşər. Amma erməni xalqı içərisindən vaxtilə elə ziyalılar çıxıb ki, onlar xəstə təfəkkürə malik insanları islah etmək istəyiblər. Erməni yazıçı Ovanes Tumanyan deyirdi: “Gerçək xilas daxildən başlamalıdır, çünki biz daxildən xəstəyik”[6,s.184].

Təəssüf ki, ermənilər tarixin dərslərindən ibrət çıxarmadılar, vaxtilə Qərbi Azərbaycanda, indiki Ermənistanda yaşamış 100 minlərlə azərbaycanlını mərhələlərlə öz yurdlarından deportasiya etdilər, qətlə yetirdilər. Azərbaycanda Xocalı, Qaradağlı, Ağdaban, Başlıbel faciələri törətdilər. Onlar yaddan çıxardılar ki, millətimizin yaddaşı oyaqdır və zaman gələcək öz sözümüzü deyəcək, ədaləti bərpa edəcəyik. ”Dəmir yumruq”adı altında cavab tədbiri görüləcək və görüldü. Heç də təsadüfi deyil ki, ölkə başçısı İlham Əliyev münaqişənin həlli barədə danışanda “44 gün ərzində biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etmədik, təkcə düşməni torpağımızdan qovmadıq, təkcə milli ləyaqətimizi bərpa etmədik, biz erməni faşizminin başını əzdik”[2] ifadəsini işlədir.

Azərbaycan münaqişənin həlli ilə bağlı həmişə sülh mövqeyində dayanıb. Qarabağ məsələsinin həllində həmişə ölkəmizə mənəvi və siyasi dəstək verən qardaş Türkiyə Cümhuriyyəti də həm Cənubi Qafqazda, həm də dünyada barışın tərəfdarıdır. Rəsmi Ankara həm Ermənistan-Azərbaycan, həm də Türkiyə-Ermənistan münasibətlərinə yenidən baxılmasını, ədalətli qərar çıxarılmasını istəyir. Türkiyə prezidenti R.T. Ərdoğan sülhpərvər siyasəti ilə əksər dünya liderləri tərəfindən təqdir olunur. O, həmişə məzlumların yanında olduğunu bəyan edir və bu istiqamətdə siyasətini davam etdirir.

44 günlük Vətən müharibəsinin nəticələri və Ermənistanla münasibətlər, sülh prosesinə başlanılması məsələsinə 2022-ci il iyunun 16-dan 18-dək Bakıda keçirilmiş 9-cu Qlobal Bakı Forumunda da toxunulub. Azərbaycan prezidenti İ. Əliyev də toplantıdakı çıxışında deyib ki, “Qarabağ münaqişəsinin həlli, zənnimcə, regionda təhlükəsizlik üçün, regionda sülh üçün bir fürsətdir” [4]. Qeyd edək ki, bu forum həm də hazırda dünyanı narahat edən problemlərin həlli yollarının tapılması baxımından əhəmiyyətlidir.”Qlobal dünya nizamına təhdidlər” mövzusunda olan müzakirələrdə verilmiş mesajlar təhlükəsizliyin təmin edilməsi üçün tədbirlərin görülməsini hədəfləyir və problemlərin həlli bəşəriyyətin gələcəyi üçün zəmin hazırlayır.

**Nəticə**

Cəmiyyətlər yaranandan xeyirlə şərin mübarizəsi həmişə gündəmdə olub, xalqlar, millətlər və dövlətlər zaman-zaman müəyyən səbəblərdən konfliktə girib, müharibə aparıblar. Bu qarşıdurmalarda çox sayda insan itkisi olub, iqtisadiyyatlara ağır zərbələr dəyib. Lakin bəşər övladı bəzən tarixn dərslərindən düzgün nəticə çıxarmayıb və nəticədə həm özü, həm də rəqibi məhrumiyyətlərlə üzləşib, ziyan görüb. Bütün müharibələr isə tez və ya gec sülhlə sona çatır. ”Müharibə və sülh məsələləri: yeni reallıqlar” adlı tədqiqat işində də bu nəticəyə gəlinib ki, insanların dinc yaşaması, birgə yaşadığı dövlətlərin təhlükəsizlik mühitində əməkdaşlığı üçün düzgün siyasət aparmaq, sülhə alternativin olmadığını təbliğ etmək lazımdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib. https://president.az/az/articles/view/42411
2. Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin Anım Günü ilə əlaqədar xalqa müraciəti. https://president.az/az/articles/view/53224/print
3. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Yeni Azərbaycan Partiyasının VII qurultayında giriş nitqi.https://president.az/az/articles/view/50805

4. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev IX Qlobal Bakı Forumunun açılışında iştirak edib https://president.az/az/articles/view/56442
5. “Quran” da müharibə hökmü haqqında.. https://aqreqator.az/az/siyaset/1078923
6. Rüstəmova A.” 44 günlük Vətən müharibəsindən sonra Cənubi Qafqazda yaranan yeni geosiyasi reallıq.AMEA-nın Fəlsəfə və Sosiologiya institutu,Azərbaycanın strateji hədəfləri və Cənubbi Qafqazda yeni reallıqlar. Bakı,”Bilgi”, 2021, səh-184
7. Zamanov O. Müharibə, onun mənşəyi və öyrənilməsi. https://core.ac.uk/download/pdf/161800343

***РЕЗЮМЕ***

***Гошгар БАГИРОВ***

***Вопросы войны и мира: новые реалии***

***Ключевые слова:*** *война и мир, оккупация, безопасность, Отечественная война, реваншистские тенденции*

Автор рассказал о конфликтах и войнах, имевших место в разные периоды истории, и проанализировал их причины и последствия. Экономические интересы государств-гегемонов, притязания высокомерных политиков и бедствия, вызванные войнами, а также враждебными тенденциями националистических элементов подчеркивают необходимость извлечения уроков из болезненных результатов истории. В статье сделан вывод о безальтернативности проявления справедливой позиции жить в мирных условиях и действовать на основе прав и законов. В статье также прокомментирован карабахский конфликт и затронута важность победы, одержанной в Отечественной войне. После обеспечения территориальной целостности Азербайджанской Республики были обсуждены условия, созданные для мирных переговоров.

.

***SUMMARY***

***Goshgar BAGHIROV***

***War and Peace Issues: New Realities***

***Keywords:*** *war and peace, occupation, security, Patriotic War, revanchist tendencies*

The present article discusses the conflicts and wars that occurred in different periods of history and analyzed their causes and consequences. The economic interests of hegemonic states, the claims of arrogant politicians and the calamities caused by the wars caused by the hostile tendencies of the nationalist elements, as well as humanity drama are mentioned, and the necessity of taking lessons from the painful results of the history is emphasized. The author concludes that there is no alternative to exhibiting a fair position to live in peaceful conditions and acting on the basis of rights and laws. The article also considers the Karabakh conflict, touching upon the importance of the victory won in the Patriotic War it refers to the conditions created for peace negotiations after ensuring the territorial integrity of the Republic of Azerbaijan.